# FÖVQƏLADƏ HADİSƏLƏR ZAMANI MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN VƏ İŞÇİLƏRİN MÜHAFİZƏSİNİN TƏŞKİLİNƏ DAİR

## METODİKİ VƏSAİT

Fövqəladə Hallar Nazirliyinin apardığı çoxsaylı yoxlamalar və təhlillər onu göstərir ki, məktəbəqədər tərbiyə müəssisələrində mülki müdafiə sahəsində normativ sənədlərin olmaması müəssisə rəhbərlərinin işini bir çox hallarda çətinləşdirir. Belə sənədlər olmadan fövqəladə hallar zamanı məktəbəqədər tərbiyə müəssisələrində uşaqların və işçilərin mühafizəsinin təşkili üzrə tədbirlərin planlaşdırılması və keçirilməsi mümkün deyil.

Hazırkı metodiki vəsait məktəbəqədər tərbiyə müəssisələrində mülki müdafiə və fövqəladə hallar sahəsində vəziyyətin düzəlməsinə müəyyən mənada köməklik göstərəcəkdir. Lakin, fövqəladə hallarda uşaqların mühafizəsinin təşkili üzrə tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi əsasən, müəssisə rəhbərinin və işçilərin şəxsi məsuliyyətindən, onların hazırlıq səviyyəsindən, eləcə də mühafizə vasitələrinin zəruri təchizatından asılıdır.

Təqdim olunan metodiki vəsaitdə fövqəladə hadisələr zamanı məktəbəqədər tərbiyə müəssisələrində uşaqların və işçilərin mühafizəsi üzrə tədbirlərin təşkili və keçirilməsi, həmçinin, tələb olunan sənədlərin işlənilməsi üçün zəruri olan bütün məlumatlar öz əksini tapmışdır.

Metodiki vəsait «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun, «Mülki müdafiənin təmin edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarının, «Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi haqqında» Əsasnamənin və digər normativ hüquqi aktların tələblərinə uyğun işlənib hazırlanmışdır. Metodiki vəsait tövsiyə xarakteri daşıdığından göstərilən sənədlərin işlənilməsi zamanı yerli şərait və məktəbəqədər tərbiyə müəssisəsinin xüsusiyyətləri nəzərə alınmalıdır.

## GİRİŞ

«Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində qeyd olunduğu kimi nazirlik, komitə, idarə, müəssisə və təşkilatlarda mülki müdafiə məsələlərinin həll edilməsi mülki müdafiə tədbirlərinin planlaşdırılması, vaxtında və keyfiyyətlə həyata keçirilməsi ilə təmin olunur.

Mülki müdafiə tədbirləri Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayonlarının, yaşayış məntəqələrinin, istehsal və sosial təyinatlı obyektlərin hərbi-strateji və iqtisadi əhəmiyyəti, təbii və digər xüsusiyyətləri nəzərə alınmaqla müvafiq normativ sənədlərdə və planlarda nəzərdə tutulur.

Mülki müdafiə tədbirləri muxtar respublikanın bütün ərazisində təşkil edilir və bu ərazidə olan bütün insanları əhatə edir. Mülki müdafiə tədbirlərinin həcmi və məzmunu mövcud qüvvə və vasitələrin yetərli olması, onlardan maksimum və səmərəli istifadə edilməsi əsasında müəyyən edilir.

Mülki müdafiə sahəsində mövcud qanunvericiliyə uyğun olaraq fövqəladə hadisələrdən müdafiə qaydalarının və mülki müdafiənin əhaliyə öyrədilməsi muxtar respublikanın bütün ərazisindəki nazirlik, komitə, idarə, müəssisələrin, təşkilatların rəhbərləri tərəfindən təşkil edilir, kadrların hazırlanması sistemində işçilərin əsas vəzifəsi ilə yanaşı mülki müdafiə üzrə vəzifələr də nəzərə alınmaqla fərdi və fasiləsiz yerinə yetirilir. Obyektlərdə mülki müdafiənin öyrədilməsi işləri tədris qruplarında məşğələ aparmaq, mühafizə məsələlərini müstəqil surətdə öyrənmək üsulları ilə, məşq və təlimlər vasitəsi ilə həyata keçirilir.

Muxtar respublikada mülki müdafiə sahəsində fəaliyyətin qanuniliyinə, obyekt qüvvə və vasitələrindən səmərəli və təyinatı üzrə istifadə edilməsinə nəzarəti Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

İdarə, müəssisə, təşkilat rəhbərləri, eləcə də hüquqi və fiziki şəxslər «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinin yerinə yetirilməsinə qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## Məktəbəqədər tərbiyə müəssisəsində uşaqların və işçilərin mühafizə üsulları.

Ölkəmizdə cəmiyyətin inkişafının bütün mərhələlərində, o cümlədən çətin müharibə illərində və müharibədən sonrakı dövrlərdə uşaqların həyatının və sağlamlığının qorunması üçün mümkün olan bütün imkanlardan istifadə edilmişdir. Müharibə şəraitində uşaqlar ilk növbədə təhlükəsiz rayonlara köçürülmüş, onlar hər şeydən əvvəl mənzillərlə, ərzaq məhsulları və dərmanlarla təchiz edilmişdir. Onların yerləşdirilməsi üçün uşaq evləri, bağçalar və körpələr evlərinin geniş şəbəkəsi açılmışdır.

Bütün bunlar təsadüfi deyildir. Uşaqların sağlamlığının qorunmasının qayğısına qalmaq, onları tərbiyə etmək və ictimai faydalı əməyə hazırlamaq – cəmiyyətin rifahının ən vacib amillərindən biri hesab edilir.

Təbii ki, cəmiyyətin, o cümlədən uşaqların gələcəyinə qayğının davam etdirilməsi bütövlükdə mülki müdafiə sisteminin tədbirlərində də nəzərdə tutulur. Fövqəladə hallar zamanı uşaqların mühafizəsinin qayğısına qalmaq yaşlı əhalinin, ilk növbədə hər bir ananın, atanın, məktəblərin və məktəbəqədər tərbiyə müəssisələrinin istənilən işçisinin insani və ən nəcib vəzifələrindən biridir. Bu vəzifənin öhdəsindən gəlmək üçün bütün yaşlı əhali, xüsusən, məktəbəqədər tərbiyə müəssisələrinin işçiləri uşaqları fövqəladə hallardan mühafizə etməyə hazır olmalıdır.

**Onlar bilməlidir:**

- fövqəladə hallardan uşaqların mühafizə üsullarını və vasitələrini;
- sığınacaq və daldalanacaqlarda uşaqların davranışı və yerləşdirilməsi qaydalarını;
- zədələnmə ocaqlarında (zonalarında) və mülki müdafiənin xəbərdarlıq siqnalları üzrə fəaliyyət zamanı uşaqların mühafizəsinin xüsusiyyətlərini.

**Onlar bacarmalıdır:**

- etibarlı mühafizə qurğusu olmayan məktəbəqədər tərbiyə müəssisələrində uşaqların yerləşdirilməsi üçün sadə daldalanacaqlardan düzgün istifadə etməyi;
- təhlükəsiz rayonlara (yerlərə) təxliyə etməyə uşaqları hazırlamağı və bu işi qısa müddət ərzində həyata keçirməyi;
- fərdi mühafizə vasitələrini uşaqlara geyindirməyi və onlar üçün sadə mühafizə vasitələrini hazırlamağı.

Fövqəladə hal təhlükəsi yarandıqda və baş verdikdə uşaqların mühafizə edilməsində məktəbəqədər tərbiyə müəssisələrinin rəhbərlərinin və işçilərinin rolu xüsusilə artır. Ehtimal olunan təbii, texnogen və kriminal xarakterli fövqəladə hallar zamanı məktəbəqədər tərbiyə müəssisələrinin rəhbərləri və işçilərin özləri uşaqları mühafizə etmək üsullarını dəqiqliklə bilməlidirlər. Bu biliklər müharibə dövründə mümkün olan fövqəladə vəziyyətlərdə onları fəaliyyətə hazırlamağın əsasını təşkil edir. Fövqəladə hallarda uşaqların mühafizəsinin etibarlı üsulu onları mühafizə qurğularında vaxtında yerləşdirməkdir.

Əgər məktəbəqədər tərbiyə müəssisəsinin yaxınlığında hazır vəziyyətə gətirilmiş sığınacaq və ya radiasiya əleyhinə daldalanacaq yoxdursa, bu zaman uşaqların və işçilərin daldalanması üçün müəssisədə nəzərdə tutulan otaqların hazırlanması və onlardan istifadə qaydaları əvvəlcədən düşünülməlidir.

Fövqəladə hadisənin yaranma təhlükəsi barədə siqnal alındıqda uşaqlar qısa müddət ərzində mühafizə qurğusunda yerləşdirilir, körpələr üçün maraqlı nağılların, şeirlərin astadan oxunması, oxumağı bacaran uşaqlara isə maraqlı kitabların verilməsi təşkil oluna bilər. Sığınacaq və daldalanacaqlarda yerləşdirilən uşaqlar böyüklərin bütün göstərişlərinə ciddi əməl etməlidirlər. Böyüklər mühafizə qurğusunda sakitliyin qorunmasını təmin etməli, uşaqlarda qorxu hissi yaratmamaq üçün onların yanında müxtəlif söhbətlər aparılmamalıdır. Böyüklərin təmkinli və bacarıqlı davranışı, qorxu və vahiməyə səbəb olmayan hərəkətləri uşaqlara öz müsbət təsirini göstərə bilər.

Radioaktiv, kimyəvi və bioloji zədələnmələrin zədələyici amillərindən uşaqların və işçilərin mühafizə edilməsində fərdi mühafizə vasitələrindən istifadə böyük əhəmiyyətə malikdir. Hazırda uşaqların tənəffüs orqanlarını mühafizə etmək üçün aşağıda göstərilən əleyhqazlardan istifadə olunur:

- PDF-D – ( məktəbəqədər uşaqlar üçün süzücü əleyhqaz);
- PDF-Ş – ( məktəbli uşaqlar üçün süzücü əleyhqaz);
- 1,5 yaşadak uşaqlar üçün uşaq mühafizə kameraları (UMK-4).

Məktəbəqədər tərbiyə müəssisələrinin uşaqları və ümumtəhsil məktəblərin ibtidai sinif şagirdləri üçün əleyhqazın üzlük hissəsinin seçilməsi və başa geyindirilməsi böyüklər tərəfindən həyata keçirilir.

İstənilən uşaq əleyhqazının üzlük hissəsinin seçilməsi üçün uşağın sifətinin hündürlüyü ölçülür və sonra cədvəl üzrə üzlük hissənin lazımi ölçüsü təyin olunur.

| **Əleyhqazın markası** | **Üzlük hissənin ölçüsü, mm** | | | |
|---|---|---|---|---|
| | **1-ci** | **2-ci** | **3-cü** | **4-cü** |
| | **Sifətin ölçüsü** | | | |
| **PDF-D** | 78 mm-dək | 79-87 mm | 88-95 mm | 86-103 mm |
| **PDF-Ş** | 78 mm-dək | 79-87 mm | 88-95 mm | 86-103 mm |

PDF-Ş əleyhqazının üzlük hissəsini seçən zaman uşağın başının üst hissəsindən, yanaq və çənəsinin altından lent vasitəsilə qapalı xətt keçirməklə onun uzunluğu ölçülür və alınan rəqəmə uyğun ölçülər müəyyən edilir:

- 630 mm-dək 0-cı ölçü;
- 630 mm-dən 655 mm-dək - 1-ci ölçü;
- 660 mm-dən 680 mm-dək - 2-ci ölçü;
- 685 mm-dən 705 mm-dək - 3-cü ölçü;
- 705 mm-dən çox olduqda 4-cü ölçü (böyüklər üçün QP-5 əleyhqazında olduğu kimi).

Uşaq əleyhqazlarının yoxlanılması, yığılması və çantaya qoyulması böyüklər tərəfindən həyata keçirilir. Böyük uşaqlar bunu müstəqil şəkildə yerinə yetirirlər. Uşaq əleyhqazları ilə göstərilən əməliyyatların yerinə yetirilməsi böyüklər üçün nəzərdə tutulan əleyhqazlarda olduğu kimidir.

Azyaşlı uşaqların başından əleyhqazın çıxarılmasını böyüklər həyata keçirir, digər uşaqlar isə böyüklər kimi müstəqil şəkildə əleyhqazı geyinib-çıxarırlar.

1,5 yaşadak uşaqlar uşaq mühafizə kamerası ilə (UMK-4) təmin olunmalıdırlar. Uşaq mühafizə kamerası metal çərçivədən, üzlük hissədən, tasdan, sıxıcı və çiyin qaytanlarından ibarətdir. Uşaq mühafizə kamerası qaytanlardan yapışmaqla əldə və ya çiyindən asılmaqla daşına bilər. Eləcə də uşaq kolyaskasının və ya xizəyin üzərində quraşdırıla bilər.

Zədələnmə ocağından kənarda mühafizə kamerasından uşağın çıxarılması mühafizə vasitəsinin çıxarılması üçün komanda verilərkən yerinə yetirilir. Uşağı qucağına alan şəxs çirklənməmiş paltarda olmalıdır. İstifadə olunmuş mühafizə kamerası deqazasiya olunmalıdır. Uşaqların tənəffüs orqanlarını radioaktiv, zəhərləyici maddələrdən və bakterial vasitələrdən qoruyan vasitələrlə yanaşı, radioaktiv tozlardan və bakterioloji aerozollardan qoruyan R-2D respiratorlarından, sadə mühafizə vasitələrindən - toz əleyhinə parça maskalardan və pambıqlı tənzif sarğılardan da istifadə oluna bilər.

R-2D respiratoru quruluşuna, iş prinsipinə və istifadəsinə görə böyüklərin istifadə etdiyi R-2 respiratoru ilə oxşardır. R-2 respiratorundan onun fərqi 4 ölçüdə hazırlanması və 7-17 yaşında olan uşaqlar üçün təyin olunmasıdır. Respiratorun lazımi ölçüsünü seçmək üçün uşağın sifətinin hündürlüyü – çənənin ən aşağı nöqtəsindən burun körpüsünün ən dərin nöqtəsinədək olan məsafə ölçülür və alınan rəqəmə uyğun ölçülər müəyyən edilir:

- 80 mm-dən 100 mm-dək - 0-cı ölçü;
- 100 mm-dən 115 mm-dək - 1-ci ölçü;
- 115 mm-dən 125 mm-dək - 2-ci ölçü;
- 125 mm-dən çox olduqda 3-cü ölçü.

Uşaqlar üçün toz əleyhinə parça maskalar böyüklər üçün hazırlanan maskalara oxşardır.

Uşaqlar üçün maskalar sifətin hündürlüyündən asılı olaraq 3 ölçüdə hazırlanır:

- 80 mm-dək 1-ci ölçü;
- 81 mm-dən 90 mm-dək - 2-ci ölçü;
- 91 mm-dən 100 mm-dək - 3-cü ölçü.

Maskalar 3 yaşından yuxarı uşaqlar üçün nəzərdə tutulur.

Uşaqlar üçün pambıqlı tənzif sarğı 80x40 sm ölçülü tənzif parçasından hazırlanır. Tənzifin üstünə 20x15 sm ölçüdə və 1-2 sm qalınlığında pambıq qatı qoyulur. Uşaqların dəri səthini radioaktiv tozdan və bakterial vasitələrdən qorumaq üçün islanmayan materialdan olan plaşlardan, idman (xizək) kostyumundan, körpələr üçün müxtəlif kombenizonlardan istifadə oluna bilər.

Əgər uşağın adi paltarına mürəkkəb olmayan hermetik vasitə tikib və paltarı xüsusi məhlulda islatsaq, o, bir müddət zəhərləyici maddələrin buxarından uşaqları qoruya bilər.

Uşaqların ayağına rezin çəkmə, ayaqqabı və ya qaloş geyindirmək, əllərinə isə rezin və dəri əlcək taxmaq lazımdır. Tənəffüs orqanlarının və dəri səthinin mühafizə vasitələrindən əlavə, tibbi mühafizə və profilaktika vasitələrindən (Aİ-2 fərdi dərman qutusu, fərdi sarğı paketi) istifadə oluna bilər.

Aİ-2 fərdi dərman qutusunda olan vasitələr (2 №-li radioaktiv vasitə və ağrıkəsicilər istisna olmaqla) 8 yaşadək uşaqlara dozanın 1/4 hissəsi, 8 yaşdan 15 yaşadək olan uşaqlara isə 1/2 hissəsi verilə bilər. Uşaqlara 2 №-li radioaktiv vasitə və ağrıkəsicilər tam dozada verilir.

Kimya əleyhinə fərdi paketdən istifadə zamanı nəzərə almaq lazımdır ki, 7 yaşdan yuxarı uşaqların dəri səthinə düşmüş zəhərli maddənin zərərsizləşdirilməsi üçün paketin içində olan mayedən istifadə etmək olar. 7 yaşadək uşaqların dəri səthinin təmizlənməsi üçün qələvi-peroksid tərkibli maddələrdən istifadə olunur. Lakin, uşaqlar üçün mühafizə vasitələri yetərincə olsa da belə, hər bir uşaq onlardan istifadə etməyi bacarmalı, uzun müddət bu vasitələrdə qalmağa hazırlanmalıdırlar. Bu tələb xüsusən məktəbəqədər yaşda olan uşaqlara və ibtidai sinif şagirdlərinə aiddir. Məsələn, əleyhqazı geyinmək üçün ilk növbədə onun istifadə qaydasını uşaqlara öyrətmək lazımdır. Bu zaman uşaqların yaşı, onların psixoloji və fizioloji xüsusiyyətləri nəzərə alınmalıdır. uşaqlar əleyhqazı ilk dəfə geyinən zaman çətinlik yarana bilər. Belə ki, kiçik yaşlı uşaqlar özlərini, valideynlərini və ya dayələrini əleyhqazda gördükdə qorxub ağlaya bilərlər. Belə hallarda dayələr çaxnaşma salmamalı, öz bilik və bacarığını ortaya qoymaqla təmkin göstərməlidirlər.

Uşaqları öyrədən zaman oyun elementlərindən geniş şəkildə istifadə olunmalıdır. Məsələn, əleyhqazı əvvəlcə böyük gəlinciyə (kuklaya) geyindirmək və s. Məşğələlər məcburi qaydada keçirilməməli, uşağın yorğunluğunun ilk əlamətləri müşahidə olunduqda məşğələ dayandırılmalıdır. Öyrətmə zamanı heç bir halda uşağın üstünə qışqırmaq, ona güclə əleyhqazı geyindirmək olmaz. Kiçik yaşlı uşaqlar və məktəb yaşında olanlar fərdi mühafizə vasitələrini daima böyüklərin nəzarəti altında geyinməlidirlər.

İstənilən halda fövqəladə halın yaranma təhlükəsi real olduqda və ya baş verdikdə təxliyənin (evakuasiya) başlanması barədə sərəncamın və ya «Hava həyəcanı» siqnalının verilməsi mümkündür. Bu zaman uşaqların təxliyə edilməsi və ya onların uzun müddət mühafizə qurğusunda qalmaları üçün zəruri tədbirlər görülməlidir.

Uşaqlar üçün paltarı və ayaqqabını seçən zaman onların mühafizə xassələri və ilin mövsümi nəzərə alınmalıdır.

3 yaşadək olan uşaqlar üçün ərzaq ehtiyatı (körpə yeməyi, quru süd, konservləşdirilmiş şirələr və s.) hazırlanmalıdır. Çünki, qida məntəqəsində və ya mühafizə qurğusunda belə yeməklərin olmaması istisna olunmur. Məktəb yaşında olan uşaqlar və ibtidai sinif şagirdləri üçün ərzaq məhsullarını seçən zaman ən yaxşısı konservləri, pendir, suxarı, peçenye, konsentrə edilmiş və tez xarab olmayan digər ərzaqları, eləcə də qaynadılmış su doldurulmuş şüşə və ya kolbanı götürmək lazımdır. Bütün ərzaqlar salafan paketlərə qoyulmalıdır. Məktəb yaşında olan uşaqlar üçün əlavə olaraq oyuncaqlar və kitablar seçmək lazımdır.

Təxliyə olunan uşaqların ərzaq və əşya yığılmış çamadanlarına (asma çantasına) etiket yapışdırılmalı, etiketdə uşağın soyadı, adı və atasının adı, ev ünvanı və təxliyə məntəqəsinin adı aydın şəkildə yazılmalıdır.

Məktəbəqədər yaşda olan uşaqlar üçün də buna bənzər qeydlər edilməlidir. Uşağın gündəlik geydiyi paltarın daxili cibinə kart qoyulmalıdır. Kartda uşağın soyadı, adı və atasının adı, doğulduğu il, yaşadığı yer, atasının və ya anasının iş yerinin ünvanı (əgər varsa telefon nömrəsi) göstərilməlidir. Bu məlumatların ağ parça üzərində yazılıb uşağın paltarının yaxalığının daxilinə tikilməsi daha məntiqlidir.

Uşaqların təxliyəsi müxtəlif üsullarla həyata keçirilə bilər. Onlar ən çox valideynləri ilə birlikdə təxliyə olunmalıdır. Bu zaman valideynlər uşaqlar üçün hazırlanmış fərdi mühafizə vasitələrini, ərzaq məhsullarını və sənədləri götürməli, öz uşaqları ilə birgə toplanış-köçürmə məntəqəsinə (nəqliyyata minmə yerinə) gəlməlidirlər.

Uşaqlar diqqətlə izlənilməli və onlar gözdən kənara qoyulmamalıdır. Böyük uşaqlar müstəqil şəkildə, adi piyada qaydada təxliyə oluna bilərlər. Bu zaman valideynlər onların

toplanmasına, yəni əşyaların düzgün yığılmasına, yürüş üçün rahat ayaqqabının seçilməsinə köməklik göstərməlidirlər.

Təxliyə zamanı uşaqların düzgün davranması, həmçinin bütün növ nəqliyyat vasitələrinə minmə və hərəkət zamanı təhlükəsizlik qaydalarına əməl etmələri böyüklərin təxliyəsinə qoyulan tələblərdən daha çox məsuliyyət tələb edir.

Mülki müdafiənin xəbərdarlıq siqnallarının verilməsi zamanı və zədələnmə ocaqlarında (rayonlarında) uşaqların mühafizəsinin bir sıra xüsusiyyətləri var.

«Hava həyəcanı» siqnalı verildikdə uşaqları tez geyindirmək, əvvəlcədən hazırlanmış əşya və ərzaq məhsullarını, fərdi mühafizə vasitələrini götürmək, onlarla birlikdə dərhal sığınacağa (daldalanacağa) getmək lazımdır.

1,5 yaşadək uşaqları uşaq mühafizə kamerasına (UMK-4) qoymaq lazımdır, lakin kameranı erkəndən hermetikləşdirmək olmaz.

Sığınacağa (daldalanacağa) girən zaman böyüklər uşaqlara yol verməli, onları ən rahat yerlərlə təmin etməlidirlər.

«Radiasiya təhlükəsi» siqnalı verildikdə mümkün şüalanma təhlükəsindən qorunmaq üçün yod profilaktikasını keçirmək və ya uşaqlara Aİ-2 fərdi dərman qutusundan 1 №-li radiomühafizə vasitəsini vermək lazımdır. Eyni zamanda böyüklər fərdi mühafizə vasitəsini geyməklə uşaqlara mühafizə vasitəsinin geyinmələrinə köməklik göstərmək, hazırlanmış əşya və ərzaq məhsullarını götürməklə təcili mühafizə qurğusuna (hermetikləşdirilmiş otağa) getmək tövsiyə olunur. Sığınacaqda zərurət yarandıqda uşaqların R-2D respiratorundan, toz əleyhinə parça maska və ya pambıqlı tənzif sarğılardan istifadə etməsi məqsədəuyğundur. Bu zaman onların üzərində olan əleyhqazlar istifadəyə hazır vəziyyətə gətirilməlidir. Radioaktiv maddələr yerə çökdükdən sonra uşaqlara Aİ-2 fərdi dərman qutusundan 2 №-li radiomühafizə vasitəsini vermək lazımdır.

«Kimya həyəcanı» siqnalı verildikdə böyüklər uşaqlarla birlikdə fərdi mühafizə vasitələrini geyinməklə mühafizə qurğusuna (hermetikləşdirilmiş otağa) getməli və təhlükənin qurtarması barədə siqnal alınanadək orada qalmalıdırlar.

Uşaqlarda kimyəvi zəhərləyici maddələrlə zəhərlənmənin əlamətləri aşkar edildikdə Aİ-2 fərdi dərman qutusunun 2 №-li yuvasından lazım olan həbi onlara vermək lazımdır. Əgər zəhərli maddənin damcıları uşağın bədənin qorunmayan hissəsinə və paltarın üzərinə düşübsə, həmin yeri imkan daxilində tez deqazasiya məhlulu ilə təmizləmək lazımdır.

Zəhərli sahədən çıxdıqdan sonra zəhərlənmənin xarici əlamətinin olub-olmamasından asılı olmayaraq uşaqların paltar və ayaqqabılarının qismən, imkan olduqda isə tam sanitar təmizlənməsi həyata keçirilməlidir.

Ərazinin bakterial vasitələrlə zəhərlənməsi zamanı kollektiv və fərdi mühafizə vasitələrindən istifadə ilə yanaşı, uşaqlara Aİ-2 fərdi dərman qutusundan bakteriya əleyhinə 1 №-li vasitənin verilməsi zəruridir.

Uşaqların kəskin infeksiyalarla xəstələnməsi zamanı (temperaturun kəskin qalxması, baş ağrısı, ümumi zəiflik və s.) adi qaydada edildiyi kimi yaxınlıqdakı müalicə müəssisəsinə xəbər vermək lazımdır. Həkim gələnədək xəstəliyin yayılmasının qarşısının alınması məqsədilə tədbirlər görülməlidir. Müalicə müəssisəsindən alınan bütün göstərişlər və tövsiyələr diqqətlə yerinə yetirilməlidir.

Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların mühafizəsinin müvəffəqiyyəti hər şeydən əvvəl müəssisə ərazisində baş verə biləcək fövqəladə hal zamanı müəssisə rəhbərinin və işçilərin mülki müdafiənin xəbərdarlıq siqnalları üzrə düzgün və səmərəli fəaliyyətindən asılıdır.

Fövqəladə hallar zamanı məktəbəqədər tərbiyə müəssisələrində uşaqların və işçilərin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin planlaşdırılması müəssisə rəhbərinin «Fövqəladə hallarda uşaqların və işçilərin mühafizəsinin təşkili, onların təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin keçirilməsi barədə» əmrində və digər sənədlərdə öz əksini tapmalıdır.

**Uşaq bağçalarında mülki müdafiə və fövqəladə hallardan qorunma sahəsində işlənilən (istifadə olunan) sənədlərin**
**S İ Y A H I S I**

1. «Fövqəladə hallarda uşaqların və işçilərin mühafizəsinin təşkili, onların təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin keçirilməsi barədə» uşaq bağçası müdirinin əmri.

(Əlavə № 1)

2. Uşaq bağçasının pasportu.

(Əlavə № 2)

3. Uşaq bağçasında uşaqların və işçilərin fövqəladə hallardan qorunması üzrə mülki müdafiə tədbirlərinin təşkili və keçirilməsi haqqında təlimat.

(Əlavə № 3)

4. Uşaq bağçasının əməkdaşlarının xəbərdarlıq sxemi.

(Əlavə № 4)

5. Uşaq bağçasında idarəetmənin, rabitə və qarşılıqlı əlaqənin təşkili sxemi.

(Əlavə № 5)

6. Uşaq bağçasında yanğın və digər fövqəladə hadisələr zamanı uşaqların və işçilərin təcili təxliyəsi sxemi.

(Əlavə № 6)

7. Mülki müdafiənin xəbərdarlıq siqnalları üzrə uşaqların və işçilərin daldalanması hesabatı.

(Əlavə № 7)

8. Şəhərin (rayonun) əsas xidmətlərinin və müəssisələrinin təcili telefon siyahısı.

(Əlavə № 8)

9. Fövqəladə hal baş verdikdə hara zəng vurmaq (məruzə etmək) lazımdır.

(Əlavə № 9)

10. Fövqəladə hallar zamanı valideynlərinə təhvil veriləcək uşaqların siyahısı (hər bir qrup üçün ayrıca).

(Əlavə № 10)

11. Təxliyə zamanı uşaqların siyahısı.

(Əlavə № 11)

12. Radioaktiv, kimyəvi zəhərlənmələrdən və yanğınlardan uşaqların mühafizəsi üzrə uşaq bağçasının tibb bacısının vəzifə təlimatı.

(Əlavə № 12)

13. Fövqəladə hallarda uşaq bağçasının tərbiyəçisinin fəaliyyəti üzrə təlimat.

(Əlavə № 13)

14. Ərzağın və suyun mühafizəsi üzrə tədbirlər.

(Əlavə № 14)

15. Uşaq bağçasında yerinə yetirilən əsas mülki müdafiə tədbirlərinin təqvim planı.

(Əlavə № 15)

16. Fövqəladə hallar zamanı uşaq bağçalarında uşaqların və işçilərin mühafizəsi üzrə əmlakların varlığının təxmini hesabatı.

(Əlavə № 16)

17. Radioaktiv zəhərlənmə zonasında davranış qaydaları.

(Əlavə № 17)

18. Kimyəvi zəhərlənmə zonasında davranış qaydaları.

(Əlavə № 18)

19. Yod profilaktikasının keçirilməsi qaydaları.

(Əlavə № 19)

20. Radioaktiv zəhərlənmə zamanı daxili şüalanmadan qorunmaq üçün stabil yod (kalium yodid) preparatının istifadəsi üzrə təlimat.

(Əlavə № 19a )

Əlavə № 1
(variant)

**Naxçıvan şəhər ___ №-li uşaq bağçası müdirinin**

**ƏMRİ**

**№____**

«____»___________ 2013-cü il Naxçıvan şəhəri

**Fövqəladə hallarda uşaqların və işçilərin mühafizəsinin təşkili, onların təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin keçirilməsi barədə**

«Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanunundan, «Mülki müdafiənin təmin edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarından və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin 2013-cü il üçün təşkilati metodiki göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, eləcə də uşaqların həyatının və sağlamlığının fövqəladə hallardan etibarlı qorunmasının təmin edilməsi üçün şəraitin yaradılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. Mülki müdafiə vəzifələrinin yerinə yetirilməsi üçün aşağıdakı vəzifəli şəxslər təyin edilsinlər:

a) Mülki müdafiə qərargahının rəisi – böyük tərbiyəçi (müəllim) __________________________;
b) Mülki müdafiə qərargah rəisinin maddi-texniki təminat üzrə müavini – təsərrüfat müdiri ______________________________;
c) təxliyə (evakuasiya) qrupunun rəisi – müəllim _____________.

2. Təxliyə (evakuasiya) qrupunun tərkibinə nümayəndə kimi toplanış-köçürmə məntəqəsində – müəllim ____________, şəhərkənarı ərazidə isə əməkdaşların və onların ailə üzvlərinin yerləşdirilməsi üçün – müəllim _________________________ daxil edilsinlər.

3. Daldalanma otaqlarının hermetikləşdirilməsi qrupunun komandiri – dayə ______________________________ təyin edilsin.
Qrupun tərkibinə – dayələr ______________________________ daxil edilsinlər.

4. Sanitar postun rəisi – tibb bacısı __________________ təyin edilsin.
Sanitar postun tərkibinə ______________________________ __________________________________________ daxil edilsinlər.

5. Ərzaq və suyun hermetikləşdirilməsi qrupunun komandiri – aşpaz ____________________________təyin edilsin.
Qrupun tərkibinə - dərzi__________________________________
- paltaryuyan___________________________
daxil edilsinlər.

6. Yanğınsöndürmə manqasının komandiri – dalandar _____________________________ təyin edilsin.
Manqanın tərkibinə - gözətçilər ___________________________
-qazanxana işçiləri____________________
__________________________________________daxil edilsinlər.

7. Təsərrüfat müdirinə tapşırılsın ki, otaqların hermetikləşdirilməsi üçün zəruri material ehtiyatını yaratsın, tənəffüs orqanlarının fərdi mühafizə vasitələrinin saxlanılması və zərurət yarandıqda onların paylanmasını təşkil etsin.

8. Dayələrə tapşırılsın ki, uşaqların və işçilərin sayına uyğun sadə mühafizə vasitələri – pambıqlı tənzif sarğıların hazırlanması və saxlanmasını təmin etsinlər.

9. Aşpaza tapşırılsın ki, ərzaq məhsullarının və suyun hermetikləşdirilməsi üçün material ehtiyatını yaratsın.

10. İşçilərin mülki müdafiə sahəsində hazırlanması qüvvədə olan 15 saatlıq tədris proqramına uyğun təşkil edilsin.

11. Mülki müdafiə tədbirlərinin yerinə yetirilməsinə nəzarəti – mülki müdafiə qərargah rəisi _________________ həvalə edirəm.

12. Əmr bütün işçilərə imza etdirməklə çatdırılsın.

**__ №-li uşaq bağçasının müdiri____________________**
**(imzası, adı, soyadı)**

Əlavə № 2
(variant)

**___ №-li uşaq bağçasının mülki müdafiə üzrə
PASPORTU**

**1. Uşaq bağçasının qısa xüsusiyyətləri.**

1.1. ___ №-li uşaq bağçası Naxçıvan şəhəri, _______________ küçəsi-___- də (___№-li məktəbin yanı) yerləşir.
1.2. Bağçada ümumilikdə ____ nəfər uşaq tərbiyə alır, o cümlədən:
a) 2-3 yaşında olan kiçik uşaqların (bir, iki) qrupu - _____ nəfər; (lazım olanı yazın)
b) 3-4 yaşında olan kiçik uşaqların (bir, iki) qrupu - _____ nəfər;
c) 4-5 yaşında olan orta uşaqların (bir, iki) qrupu - _____ nəfər;
d) 5-6 yaşında olan böyük uşaqların (bir, iki) qrupu - _____ nəfər;
6) 6-7 yaşında olan uşaqların (bir, iki) hazırlıq qrupu - _____ nəfər.
1.3. Pedoqoji işçilər və xidmət personalı - ____ nəfər, onların ailə üzvləri- ___ nəfər təşkil edir.
1.4. Uşaq bağçası həftənin şənbə - bazar günləri istisna olmaqla hər gün saat 8.00-dan 18.00-dək fəaliyyət göstərir.
1.5. Uşaq bağçası ____________________________________
(binanın tikintisi barədə bütün məlumatlar – mərtəbə
____________________________________________________
sayı, materialı, istismara verildiyi il,
____________________________________________________
təxliyə çıxışlarının sayı, zirzəminin sahəsi, hündürlüyü, otaqların sayı, təyinatı və
____________________________________________________
sahəsi, binanın əsas otaqları: qrupların otaqları,
____________________________________________________
soyunma otaqları, ayaq yolları, musiqi və idman zalı, mətbəx, yeməkxana, təsərrüfat
____________________________________________________
otağı, qazanxana, eləcə də digər zəruri məlumatlar)

Binanın yaşayış blokunun otaqlarında şüalanmanın orta zəiflətmə əmsalı [1] _______

[1] Fövqəladə Hallar Nazirliyinin məlumatları əsasında təyin olunur.

1.6. Uşaqların gəzintisi bağçaya bitişik ərazidə həyata keçirilir.

**2. Uşaq bağçasının yerləşdiyi ərazidə fövqəladə hallar zamanı ehtimal olunan vəziyyətin xüsusiyyətləri.**

2.1. Uşaq bağçasının ərazisində radioaktiv zəhərlənmə təhlükəsi Ermənistan ərazisindəki Metsamor Atom Elektrik Stansiyasında qəza nəticəsində mümkündür. Metsamor AES dövlət sərhəddimizdən 90 km şimal-qərbdə, Oktemberyan şəhərindən 11 km şimal-şərqdə yerləşir. Radioaktiv çirklənmə stansiyanın reaktorunda partlayış nəticəsində mümkündür. Qəza zamanı radioaktiv bulud metereoloji şəraitdən asılı olaraq (küləyin sürəti 5 m/san olarsa) **4,5 saata** muxtar respublika ərazisinə çata bilər. Radioaktiv maddələr yerə bir neçə saatdan 1 sutkaya və daha çox müddətə çökə bilər. Ərazinin maksimal çirklənmə səviyyəsi saatda 5 rentgen ehtimal olunur.

**Mühafizənin əsas üsulu - uşaqların və işçilərin hermetikləşdirilmiş otaqlarda yerləşdirilməsi və fərdi mühafizə vasitələrinin istifadə olunması.**

2.2. Uşaq bağçasının yaxınlığında kimyəvi maddələrlə işləyən müəssisələr fəaliyyət göstərmədiyindən kimyəvi zəhərlənmə təhlükəsi istisna olunur.

Əlavə № 3
(variant)

| | |
|---|---|
| **«Təsdiq edirəm»**<br>**Naxçıvan şəhər _ №-li uşaq**<br><br>**bağçasının müdiri_____________**<br>**(İmzası, adı, soyadı)**<br><br>**«____» ___________201-c_ il** | **«Razılaşdırılıb»**<br>**Naxçıvan MR Fövqəladə Hallar Nazirliyinin**<br>**Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi**<br><br>**polkovnik E.Qasımov**<br><br>**«____» ___________201-c_ il** |

## __ №-li uşaq bağçasında uşaqların və işçilərin fövqəladə hallardan qorunması üzrə mülki müdafiə tədbirlərinin təşkili və keçirilməsi haqqında

## TƏLİMAT

Naxçıvan şəhər __ №-li uşaq bağçası __________________ ünvanında yerləşir.

Uşaq bağçasında uşaqların və işçilərin sayı ____ nəfər təşkil edir. Onların ____ nəfəri əməkdaşlar, ____ nəfəri uşaqlardır. O cümlədən,

- 3 yaşadək uşaqlar ___ nəfər;
- 4-6 yaşadək uşaqlar __ nəfər.

Bağça birnövbəli (ikinövbəli) iş rejimində fəaliyyət göstərir.

Naxçıvan şəhərində ehtimal olunan təbii və texnogen xarakterli fövqəladə hallar (zəlzələ, qasırğa, yanğın, partlayış, radioaktiv zəhərlənmə, nəqliyyat qəzaları və s.) zamanı uşaqların, işçilərin həyatı və sağlamlığı təhlükə altında qala bilər.

Bağça ərazisində fövqəladə hal təhlükəsi yarandıqda itkilərin və xəsarət alanların sayının azaldılması məqsədilə aşağıda göstərilən tədbirlər hayata keçirilməlidir.

1. Bağçanın müəllim heyətindən sutkalıq növbətçilik təşkil olunur.
2. Mülki müdafiə sənədləri dəqiqləşdirilir.
3. Naxçıvan şəhər İcra Hakimiyyətindən yaranmış vəziyyət barədə məlumatların alınması təşkil olunur.
4. Bağçada yaradılmış dəstələrin şəxsi heyətlə və maddi vəsaitələrlə təminatı yoxlanılır.
5. Naxçıvan şəhər İcra Hakimiyyətinin göstərişi ilə uşaqlar valideynlərinə imza etdirməklə təhvil verilir.
6. 1 saat müddətində evə çata bilən işçilər evə buraxılır, qalan işçilər isə bağçada qalır.
7. Uşaq bağçası bağlanır.

### Fövqəladə hallar zamanı həyata keçirilən tədbirlər

### A. Radioaktiv zəhərlənmə zamanı:

**«Hamının diqqətinə»** siqnalı ilə **«Radiasiya təhlükəsi»** barədə səsli məlumatlar verilən zaman aşağıdakı tədbirlər həyata keçirilir:

1. Hazırkı təlimata uyğun fəaliyyət göstərilir.
2. İşləyən əməkdaşların hamısına şəxsi ünsiyyətlə və ya çaparlar vasitəsilə siqnal təcili çatdırılır.
3. Uşaqların mühafizəsi üzrə tapşırıqlar qoyulur.
4. Təlimata əsasən yod profilaktikası həyata keçirilir.
5. Uşaqlara yardımın göstərilməsi və onların daldalanması üçün yerlərin hazırlanması məqsədilə istirahətdə olan əməkdaşlar evdən çağırılır (ehtiyac yarandıqda).
6. Radioaktiv zəhərlənmə təhlükəsi yarandıqda hamı pambıqlı tənzif sarğılar geyinir, uşaqlar qapı və pəncərələrdən uzaqlaşdırılır.
7. Uşaqların daldalanma otaqlarının qapıları, pəncərələri və ventilyasiya bacaları hermetikləşdirilir. Radioaktiv buludun uşaq bağçasının üzərindən keçdiyi andan 4 saat müddətində uşaqlar və işçilər daldalanacaqda qalmalıdırlar.
8. Ərzaq məhsulları və suyun hermetikləşdirilməsi həyata keçirilir.
9. Hər bir adam üçün 0,5 litr olmaqla 3 günlük içməli su ehtiyatı yaradılır (yeməyin hazırlanması nəzərdə tutulmur).
10. Əməkdaşlar tərəfindən radioaktiv zəhərlənmə zonasında davranış qaydaları barədə təlimat öyrənilir.
11. Əməkdaşların sutkalıq növbətçiliyi təşkil olunur.
12. Zəhərlənmə zonasında uzun müddət qaldıqda təyin olunmuş radiasiya təhlükəsizliyi rejimlərinə əməl olunur.

13. Müvəqqəti köçürülmə barədə sərəncam alındıqda təxliyə (evakuasiya) tədbirləri təşkil olunur. İlk növbədə 3 yaşadək uşaqlar təxliyə olunurlar.

14. Həyata keçirilən tədbirlər və onların həcmi barədə Naxçıvan şəhər İcra Hakimiyyətinə ______________№-li telefona məruzə edilir.

**B. Yanğınlar zamanı:**

1. Yanğın və təxliyə istiqaməti barədə əməkdaşları xəbərdar etmək.
2. Yanğın barədə «101» və ya «112» nömrəli telefonlara məlumat vermək.
3. Enerjinin kəsilməsini təmin etmək.
4. Uşaqların təhlükəsiz yerlərə təcili təxliyəsini təşkil etmək.
5. Uşaqların sayını siyahılar üzrə yoxlamaq.
6. Yanğının qarşısının alınması və məhdudlaşdırılmasını təşkil etmək.
7. Naxçıvan şəhər İcra Hakimiyyətinə görülmüş tədbirlər barədə məlumat vermək.

**C. Yaxınlaşan qasırğa barədə məlumat aldıqda:**

1. İşdə olan bütün əməkdaşları xəbərdar etmək və mühafizə tədbirlərinin görülməsi üçün onlara tapşırıqlar qoymaq.
2. Otaqların qapı və pəncərələrinin, dam örtüyünün bacasının bağlanmasını təşkil etmək.
3. Elektrikin və qazın söndürülməsini təşkil etmək, qəza işıqlandırıcılarını hazır vəziyyətə gətirmək.
4. Gəzintidə olan uşaqları təcili olaraq otaqlarda yerləşdirmək.
5. Birinci mərtəbənin otaqlarında və ya zirzəmi hissədə uşaqların yerləşdirilməsi üçün məşğələ keçirmək.
6. Ətrafdakı vəziyyəti öyrənmək üçün müşahidə postu yaratmaq.
7. Həyata keçirilən tədbirlər barədə Naxçıvan şəhər İcra Hakimiyyətinə ______________№-li telefona məlumat vermək.

**D. Binaya partlayıcı qurğunun qoyulması barədə məlumat aldıqda:**

1. Əməkdaşları təcili xəbərdar etmək və binadan təcili təxliyə tədbirlərini keçirməyə tapşırıqlar qoymaq.
2. Uşaqları təxliyə etməklə onları təhlükəsiz yerlərdə yerləşdirmək.
3. Uşaqların sayını siyahılar üzrə yoxlamaq.
4. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin «112» qaynar telefon xəttinə, Naxçıvan şəhər Polis İdarəsinin «102» xidmətinə məlumat vermək.
5. Həyata keçirilən tədbirlər barədə Naxçıvan şəhər İcra Hakimiyyətinə ______________№-li telefona məlumat vermək.

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini_________________**

**(imzası, adı, soyadı)**

Əlavə № 4
(variant)

**«Təsdiq edirəm»**
**Naxçıvan şəhər ____ №-li uşaq bağçasının**
**müdiri ___________________________**
**(imzası, adı, soyadı)**

**«_____»______________20__-c__ il**

## Naxçıvan şəhər ____ №-li uşaq bağçasının əməkdaşlarının xəbərdarlıq SXEMİ




## 1 №-li heyətin siyahısı

| s/s | Soyadı, adı, atasının adı | Telefon №-si | | Yaşadığı ünvan | Qeyd |
|---|---|---|---|---|---|
| | | Ev | Mobil | | |
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |
| 5 | | | | | |
| 6 | | | | | |
| 7 | | | | | |
| 8 | | | | | |
| 9 | | | | | |
| 10 | | | | | |
| 11 | | | | | |
| 12 | | | | | |
| 13 | | | | | |
| 14 | | | | | |
| 15 | | | | | |
| 16 | | | | | |
| 17 | | | | | |
| 18 | | | | | |

## 2 №-li heyətin siyahısı

| s/s | Soyadı, adı, atasının adı | Telefon №-si | | Yaşadığı ünvan | Qeyd |
|---|---|---|---|---|---|
| | | Ev | Mobil | | |
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |
| 5 | | | | | |
| 6 | | | | | |
| 7 | | | | | |
| 8 | | | | | |
| 9 | | | | | |
| 10 | | | | | |
| 11 | | | | | |
| 12 | | | | | |
| 13 | | | | | |
| 14 | | | | | |
| 15 | | | | | |
| 16 | | | | | |
| 17 | | | | | |
| 18 | | | | | |
| 18 | | | | | |
| 20 | | | | | |

**Qeyd:** 1. Təsərrüfat müdiri, böyük tərbiyəçi və ya onu əvəz edən şəxsdə xəbərdar edilən heyətin siyahısı, telefonu və ev ünvanları olmalıdır.

2. Xəbərdarlıq vasitələri işləmədikdə əvəzedici şəxslər çaparlar vasitəsilə xəbərdar olunur.

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini___________________**
**(imzası, adı, soyadı)**

Əlavə № 5
(variant)

**«Təsdiq edirəm»**
**Naxçıvan şəhər ___ №-li uşaq bağçasının**
**müdiri ______________________________**
**(imzası, adı, soyadı)**

**«_____»______________20__-c__ il**

## Naxçıvan şəhər _ №-li uşaq bağçasında idarəetmənin, rabitə və qarşılıqlı əlaqənin təşkili

## SXEMİ




**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini_________________**
**(İmzası, adı, soyadı)**

Əlavə № 6
(variant)

## Naxçıvan şəhər ____ №-li uşaq bağçasında yanğın və digər fövqəladə hadisələr zamanı uşaqların və işçilərin təcili təxliyəsi

## SXEMİ




**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini_________________**
**(İmzası, adı, soyadı)**

Əlavə № 7
(variant)

**«Təsdiq edirəm»**
**Naxçıvan şəhər ____ №-li uşaq bağçasının**
**müdiri ______________________________**
**(imzası, adı, soyadı)**

**«_____»________________2013-cü il**

## Mülki müdafiənin xəbərdarlıq siqnalları üzrə Naxçıvan şəhər___№-li uşaq bağçasının uşaqlarının və işçilərinin daldalanması HESABATI

| s/s | Xəbər-darlıq siqnalları (fövqəla-də halın növü) | Daldalanma yeri (otaqlar) və hansı qruplar daldalanır | Daldalanma yerinin (otağının) sahəsi (həcmi) m$^2$ | m$^3$ | Daldala-nanların sayı (nəfər) | Cavabdeh şəxs |
|---|---|---|---|---|---|---|
| 1. | **Radiasiya təhlükəsi, kimya həyəcanı** | 1 №-li istirahət otağı- 1 №-li qrup | 30 | 70 | 20 | Həsənova |
| | | 2 №-li istirahət otağı- 2 №-li qrup | 30 | 70 | 25 | Əliyeva |
| | | Musiqi kabinəsi- 3 №-li qrup | 40 | 85 | 27 | Məmmədova |
| | | 3 №-li istirahət otağı- 4 №-li qrup | 30 | 70 | 18 | Əsgərova |
| | | 1 №-li soyunma otağı- əməkdaşlar və s. | 25 ....... | 65 ...... | 18 ...... | Zeynalova |
| 2. | **Hava həyəcanı** | Zirzəmidə və daxili divarların arasında | 60 | 150 | …… | Dayələr |

**Naxçıvan şəhər ____ №-li uşaq baьçası**

**müdirinin müavini____________________**
**(imzası, adı, soyadı)**

Əlavə № 8
(variant)

## Naxçıvan şəhərinin əsas xidmətlərinin və müəssisələrinin TƏCİLİ TELEFON SİYAHISI

| s/s | Xidmətlər və müəssisələr | Telefonlar | Qeyd |
|---|---|---|---|
| 1 | Fövqəladə Hallar Nazirliyinin növbətçi hissəsi | 544-48-50<br>544-48-92<br>544-48-93 | |
| 2 | Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi | 544-48-51<br>112 | |
| 3 | Polis İdarəsinin növbətçi hissəsi | 545-26-61<br>545-77-02<br>545-77-03<br>102 | |
| 4 | Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin növbətçi yanğınsöndürmə xidməti | 545-88-42<br>101 | |
| 5 | Qaz qəza xidməti | 104 | |
| 6 | Təcili Tibbi Yardım Mərkəzi | 103 | |
| 7 | Gigiyena və Epidemiologiya Mərkəzi | 545-79-01 | |
| 8 | Dövlət Energetika Agentliyinin mərkəzi dispetçer xidməti | 545-79-49<br>554-01-54 | |
| 9 | İstilik idarəsi | ……. | |
| 10 | «Sukanalizasiya» ASC | …….. | |
| 11 | Lift idarəsi | …….. | |

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini____________________**
**(imzası, adı, soyadı)**

Əlavə № 9
(variant)

## Fövqəladə hal baş verdikdə hara zəng vurmaq (məruzə etmək) lazımdır

| s/s | Fövqəladə halın və ya ekstremal şəraitin adı | Kimə məruzə edilir | Telefonlar |
|---|---|---|---|
| 1 | Yanğın | 1. Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə<br>2.Fövqəladə Hallar Nazirliyinin növbətçi hissəsinə<br>3. Naxçıvan şəhər İcra Hakimiyyətinə | 101<br>112<br>544-48-50<br>545-01-60 |
| 2 | Bədbəxt hadisə (travma, yaralanma, yanıqlar, elektrotravma və s.) | 1. Təcili Tibbi Yardım Mərkəzinə<br>2. Bağçanın rəhbərliyinə<br>3. Naxçıvan şəhər İcra Hakimiyyətinə<br>4. Uşağın valideynlərinə (qohumlarına) | 103<br>545-45-45<br>545-00-00<br>545-00-00 |
| 3 | Partlayış təhlükəli əşya aşkar edildikdə | 1. Polis İdarəsinə<br>2.Fövqəladə Hallar Nazirliyinin növbətçi hissəsinə<br>3. Naxçıvan şəhər İcra Hakimiyyətinə<br>4. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin növbətçisinə | 102<br>112<br>544-48-50<br>545-00-00<br>544-00-00 |
| 4. | Uşaq itkin düşdükdə | 1. Bağçanın rəhbərliyinə<br>2. Uşağın valideynlərinə (qohumlarına)<br>3. Polis İdarəsinə | 545-00-00<br>544-00-00<br>102 |
| 5 | Binada (otaqda) partlayıcı qurğu aşkar edildikdə | 1.Fövqəladə Hallar Nazirliyinin növbətçi hissəsinə<br>1. Polis İdarəsinə<br>2.Milli Təhlükəsizlik Nazirliyinin növbətçi hissəsinə<br>3. Bağçanın rəhbərliyinə<br>4. Naxçıvan şəhər İcra Hakimiyyətinə | 112<br>544-48-50<br>102<br>545-01-01<br>545-02-02<br>545-02-02 |
| 6 | Qida zəhərlənmələri baş verdikdə | 1. Təcili Tibbi Yardım Mərkəzinə<br>2. Bağçanın rəhbərliyinə<br>3. Uşağın valideynlərinə (qohumlarına) | 103<br>545-00-00<br>545-01-01 |

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini__________________**
(imzası, adı, soyadı)

Əlavə № 10
(variant)

## Fövqəladə hallar zamanı valideynlərinə təhvil veriləcək UŞAQLARIN SİYAHISI

| s/s | Uşağın soyadı, adı və atasının adı | Qrupun №-si | Verilmə tarixi və vaxtı | Validey-nin imzası | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |
| 5 | | | | | |
| … | | | | | |

**Dayə** ______________________
(soyadı, adı, imzası)

Əlavə № 11
(variant)

## Təxliyə zamanı uşaqların SİYAHISI

| s/s | Uşağın soyadı, adı və atasının adı | Qrupun №-si | Uşağın mövcudluğu barədə qeyd | Qeyd |
|---|---|---|---|---|
| 1 | | | | |
| 2 | | | | |
| 3 | | | | |
| 4 | | | | |
| 5 | | | | |
| … | | | | |

**____ №-li uşaq bağçasının müdiri ______________________**
(imzası, adı, soyadı)

**Qeyd:** Siyahılar hər bir qrup üçün ayrıca tərtib olunur və vaxtaşırı dəqiqləşdirilməlidir.

Əlavə № 12
(variant)

**«Təsdiq edirəm»**
**Naxçıvan şəhər ____ №-li uşaq bağçasının**
**müdiri ___________________________**
**(imzası, adı, soyadı)**

**«_____»______________20__-c__ il**

**Radioaktiv, kimyəvi zəhərlənmələrdən və yanğınlardan uşaqların mühafizəsi üzrə uşaq bağçasının tibb bacısının**

## VƏZİFƏ TƏLİMATI

**<u>Tibb bacısı bilməlidir:</u>**

a) radioaktiv və kimyəvi maddələrin insan orqanizminə olan təsirini;
b) radioaktiv və kimyəvi maddələrin ərzaq məhsullarına və suya olan təsirini;
c) radioaktiv və kimyəvi zəhərlənmələrdən mühafizə üsullarını və profilaktik tədbirləri;
d) radioaktiv və kimyəvi zəhərlənmələrdən ərzaq məhsullarının və suyun mühafizə üsullarını;
e) zəhərlənmələr və yanıqlar zamanı ilk tibbi yardım göstərmək üsullarını.

**<u>Tibb bacısı borcludur:</u>**

1. Sanitar postun vəzifəli şəxslərinə ilk tibbi yardım göstərmək üsullarını öyrətmək.
2. Yod mənşəli və yanıq əleyhinə preparatların, zəhərlənmələr zamanı istifadə olunan dərmanların ehtiyatını yaratmaq və saxlanmasını təmin etmək.
3. Radioaktiv və kimyəvi zəhərlənmələr zamanı yeməyin hazırlanması texnologiyasını yeməkxana işçilərinə öyrətmək.
4. Zədələnmələr zamanı özünə yardım üsullarının öyrədilməsində şəxsən iştirak etmək.
5. Bağça müdiri ilə birgə adamların mühafizəsi, eləcə də ərzaq məhsullarının və suyun hermetikləşdirilməsi üçün istifadə olunacaq otaqları təyin etmək.
6. Radioaktiv və ya kimyəvi zəhərlənmə təhlükəsi yarandıqda:
   a) sanitar postun fəaliyyətinə rəhbərlik etmək;
   b) yod profilaktikasını təşkil etmək;
   c) ərzaq məhsullarının və suyun mühafizəsinin təşkilində və 2 günlük toxunulmaz ehtiyatın yaradılmasında iştirak etmək;
   d) gigiyena və epidemiologiya mərkəzindən analizlərin nəticələri alınanadək ərzaq məhsullarından istifadəni qadağan etmək.

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini___________________**
**(imzası, adı, soyadı)**

Əlavə № 13
(variant)

**«Təsdiq edirəm»**
**Naxçıvan şəhər ____ №-li uşaq bağçasının**
**müdiri ______________________________**
**(imzası, adı, soyadı)**

**«_____»______________20__-c__ il**

**Fövqəladə hallarda bağça tərbiyəçisinin fəaliyyəti üzrə**
**TƏLİMAT**

**I. Radioaktiv zəhərlənmə təhlükəsi yarandıqda.**

1. Daldalanma sxeminə uyğun olaraq uşaqları hermetikləşdirilmiş otaqlarda yerləşdirmək.
2. Tənəffüs orqanlarının fərdi mühafizə vasitələrinin hər bir uşaq tərəfindən düzgün geyinilməsini təşkil etmək.
3. Daldalanma otaqlarında vaxtaşırı sulu təmizləmənin aparılmasını təşkil etmək.
4. Uşaqlar tərəfindən radiasiya intizamına əməl etmələrini təşkil etmək və çirklənmiş ərazidə davranış qaydalarına nəzarət etmək.

**Qəti qadağandır:**

a) otaqdan çıxmaq;
b) yemək və su qəbul etmək;
c) tənəffüs orqanlarının mühafizə vasitələrini çıxarmaq;
d) pəncərənin yaxınlığında durmaq.

5. Radioaktiv zəhərlənmə təhlükəsi keçdikdən sonra uşaqların sanitar təmizlənməsini həyata keçirmək.
6. Radioaktiv zədələnmə zamanı uşağı təcili müalicə müəssisəsinə çatdırmaq.

**II. Qasırğa zamanı**

1. Küçədə olan uşaqları otaqlara qaytarmaq.
2. Siyahı üzrə uşaqları yoxlamaq.
3. Qazı və işığı keçirtmək, imkan daxilində qəza işıqlandırıcılarını (fənər, neft lampası və s.) hazırlamaq, həmçinin su ehtiyatını yaratmaq.
4. Qapı və pəncərələri, tərlikləri və dam örtüyünün bacalarını bağlamaq.
5. Mühafizə sxeminə uyğun olaraq uşaqların I mərtəbənin otaqlarında və ya zirzəmidə yerləşdirilməsini təşkil etmək.
6. Uşaqların qapı və pəncərələrin yaxınlığında durmasına icazə verməmək.
7. Uşaqların otaqlardan çıxmasını qadağan etmək.
8. Qasırğanın təsirindən zərərçəkmiş uşaqlara ilk tibbi yardım göstərmək, ehtiyac olduqda onları müalicə müəssisəsinə göndərmək.

**III. Binada (otaqda) yanğın zamanı**

1. Bağça müdirini dərhal xəbərdar etmək.
2. Uşaqlar üçün təyin olunmuş həyəcan siqnalını vermək.
3. Yanan otaqdan uşaqları təxliyə sxeminə uyğun olaraq təcili təhlükəsiz yerlərə təxliyə etmək.
4. Uşaqları otaqlardan təxliyə edərkən təhlükəsizlik qaydalarına ciddi əməl etmək.
5. Siyahılar üzrə uşaqların sayını yoxlamaq.
6. Sırada olmayan uşaqların axtarışını təşkil etmək.
7. Bağça müdirinin göstərişi ilə maddi vəsaitlərin xilas edilməsini təşkil etmək.
8. Zərərçəkənlərə ilk tibbi yardım göstərmək.

**IV. Zəhərlənmələr zamanı**

1. Zərərçəkənlərin sayını, mümkün zəhərlənmə səbəblərini və əlamətlərini təyin etmək.
2. Bağça müdirinə zərərçəkənlər barədə məlumat vermək.
3. İmkan daxilində ilk tibbi yardım göstərmək.
4. Təcili tibbi yardım çağırmaq və ya zərərçəkəni müalicə müəssisəsinə göndərmək.
5. Xəstə uşaqları sağlam uşaqlardan təcrid etmək.
6. Təcili tibbi yardım gələnədək zərərçəkənin vəziyyətinə nəzarət etmək.
7. Bağça müdirinin göstərişi ilə hərəkət etmək.

**V. Əgər uşaq itibsə**

1. Bağça müdirini dərhal xəbərdar etmək.
2. İtmiş uşağın axtarışını şəxsən təşkil etmək.
3. Onun axırıncı dəfə olduğu yerə getmək və zəng vurmaq, onu axırıncı dəfə kim harada görüb dostlarından soruşmaq.
4. İtkin düşənin paltarlarının və sənədlərinin varlığını yoxlamaq.
5. Bağça müdirinin göstərişi ilə 102 nömrəli telefonla uşağın itkin düşməsi barədə polisə zəng vurmaq.
6. Digər dayələrin köməyi ilə yaxınlıqdakı evlərin girişlərində, çardaqlarda, zirzəmilərdə, həyətyanı sahədə və digər yerlərdə uşağın axtarışını həyata keçirmək.
7. Uşağın axtarışını özbaşına dayandırmamaq.
8. Uşaq tapıldıqdan sonra bağça müdirinə məlumat vermək.

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini___________________**
**(imzası, adı, soyadı)**

Əlavə № 14
(variant)

**«Təsdiq edirəm»**
**Naxçıvan şəhər ____ №-li uşaq bağçasının**
**müdiri _________________________**
**(İmzası, adı, familyası)**

**«_____»_____________20__-c__ il**

## ƏRZAQ VƏ SUYUN MÜHAFİZƏSİ ÜZRƏ TƏDBİRLƏR

### 1. Ərzağın saxlanılması üçün otaqların hermetikləşdirilməsi.

Zirzəmilərin giriş qapılarına rezin ara qatı qoymaqla kip bağlamalı, pəncərələr kərpiclə və ya qum kisələri ilə hörülməli, boşluqlar isə sement məhlulu ilə tutulmalıdır.

Anbar otaqlarında (sandıqxanalarda) tərliklərə və pəncərə şüşələrinin kənarlarına kağız yapışdırmalı, pəncərələr ədyal və ya açıq rəngli kip parça ilə tutulmalı, qapılar isə rezin ara qatı və ya köpüklə kipləşdirilməlidir.

### 2. Ərzaq məhsullarının mühafizəsi.

Radioaktiv və kimyəvi zəhərləyici maddələrdən ərzaq məhsullarının tam qorunması üçün istifadə olunan qablar:

a) tənəkədən düzəldilmiş ağzı kip bağlanmış bankalar;
b) tənəkə qapaqla ağzı kip bağlanmış şüşə bankalar;
c) ağzı rezin ara qatı ilə bağlanmış metal bidonlar;
d) ağzı rezin ara qatı və mantarla bağlanmış metal çəlləklər.

Radioaktiv tozlardan ərzaq məhsullarının qismən qorunması üçün istifadə olunan qablar:

a) boş taxta çəlləklər;
b) polietilen içlikli parça və kağız kisələr;
c) qudronlu kağız kisələr;
d) qapaqla və mantarla bağlanmış geniş ağızlı şüşə və bankalar.

Su ehtiyatının mühafizəsi üçün istifadə olunan qablar:

a) termoslar və bidonlar;

b) ağzı bağlı vedrələr və su çənləri;

c) dəmir çəlləklər və qutular (kanistrlər);

d) üstü salafan müşənbə ilə bağlanmış (kipləşdirilmiş) vannalar.

**3. Ərzaq məhsullarının saxlanması**

Tez xarab olan ərzaq məhsulları (ət, yağ, pendir, kolbasa, balıq, perqament) salafana bükülür, müxtəlif qablara qablaşdırılır və soyuducularda yerləşdirilir.

Digər ərzaq məhsulları **(**qənd və un məmulatları.) kağız və ya polietilen paketlərə qablaşdırılır və daxilinə polietilen içlik salınmış taxta (karton) qutulara yerləşdirilir və ya polietilen içlikli kisələrə yığılır.

Çörək, suxarı və qənnadı məmulatları bir neçə qat kağıza qoyulur, polietilen müşənbəyə bükülür, taxta (karton) qutulara yerləşdirilir və ya polietilen içlikli kisələrə yığılır.

Meyvə və tərəvəzlər quru vəziyyətdə polietilen içlikli taxta (karton) qutulara yerləşdirilir.

İçməli su termoslara, bidonlara, qapaqlı çənlərə və vedrələrə, ağzı mantarlı dəmir çəlləklərə, üstü müşənbə, polietilen və digər vasitələrlə örtülmüş vannalara doldurulur və hermetikləşdirilmiş otaqlarda saxlanılır.

**Ehtimal olunan radioaktiv zəhərlənmə zonalarında qidalanmanın xüsusiyyətləri**

Radioaktiv zəhərlənmə zonalarında qida məhsullarından və içməli sudan istifadə zamanı aşağıdakı tələblərə riayət etmək lazımdır:

1. Qidanı və suyu hər dəfə qəbul edən zaman ağızı su ilə yaxalamaq, suyu burun vasitəsilə daxilə çəkmək, bir neçə dəfə burunu təmizləmək və əlləri yaxşıca yumaq.

2. Bütün meyvə və tərəvəzləri axar su ilə yaxşıca yumaq, meyvənin qabığını soymaq, eləcə də çiçək sapını və özəyi çıxarmaq.

3. Mağazalarda satılan, dozimetrik nəzarətdən keçirilmiş meyvə və tərəvəzlərin alınmasına üstünlük vermək.

4. Zəhərlənmənin ilk günlərində təbii süddən, qızardılmış və suda qaynadılmış kartofdan istifadə etməmək.

5. Qızartma yeməklərdən daha çox suda qaynadılmış yeməklərə üstünlük vermək.

6. Otyeyən heyvanların ətindən istifadəni imkan daxilində azaltmaq, daxili orqanlarından isə tamamilə imtina etmək.

7. Quzuqulağı, ispanaq, şüyüt və cəfəri kimi tərəvəzlərdən, eləcə də müxtəlif salatlardan imtina etmək.

**Qeyd:** Ətin hazırlanması və istifadəsi zamanı aşağıdakılara əməl etmək zəruridir:

a) əti kiçik parçalara doğramaq və soyuq suda 1-2 saat müddətində saxlamaq;

b) əti axar suda yaxşıca yumaq və duz tökmədən 40-45 dəqiqə ərzində suda qaynatmaq (hazır olanadək).

c) suyu boşaltmaq və əti yumaq.

d) əti tam hazır olanadək bişirmək, onun üstünə duz və zəruri ədviyyatlar səpmək.

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini____________________**

**(imzası, adı, soyadı)**

Əlavə № 16
(variant)

**Fövqəladə hallar zamanı uşaq bağçalarında uşaqların və işçilərin mühafizəsi üzrə əmlakların varlığının təxmini**

## HESABATI

1. Tibbi mühafizə vasitələrinin ehtiyatı:

a) 2 %-li içməli soda məhlulu (hər 10 nəfərə 20 qr. hesabı ilə);
b) 5 %-li limon turşusunun məhlulu (10 nəfərə 50 qr. hesabı ilə);
c) kalium yodid həbləri (böyüklərə gündə 1 həb, uşaqlara 7-10 gün ərzində 1/2 həb) və ya 5 %-li yod cövhəri (böyüklərə gündə 2 ml, uşaqlara isə 7 gün ərzində 1 ml).

2. Məhlulların hazırlanması üçün tutumlar (təmiz vedrə, çanaqlar və s.), hər bir qrup üçün 1-2 ədəd.

3 Hər bir uşaq üçün pambıqlı tənzif (parça) sarğı, işçilər üçün isə uşaqların və işçilərin ümumi sayının 10%-i qədər ehtiyat.

4. Hermetikləşdirici materiallar (köpük, fırça, daldalanmaq üçün nəzərdə tutulmuş hər bir otağın qapı və pəncərələrini, ventilyasiya qapaqlarını hermetikləşdirmək üçün tutum).

5.Tibb çantası və ya ilk tibbi yardım qutusu (dəsti ilə birlikdə).

6. İlkin yanğınsöndürmə vasitələri dəsti.

7. Telefon rabitə vasitəsi.

**Qeyd:** 1. Yuxarıda sadalanan əmlaklar (6-cı və 7-ci bənddə göstərilənlər istisna olmaqla) xüsusi otaqda saxlanmalıdır.

2. Əmlaklar bağça müdirinin göstərişi ilə xüsusi təyin olunmuş şəxs tərəfindən alınmalıdır.

**Naxçıvan şəhər ____ №-li uşaq bağçası**

**müdirinin müavini____________________**
**(imzası, adı, soyadı)**

Əlavə № 17

**Radioaktiv zəhərlənmə zonasında davranış**

## QAYDALARI

İnsan orqanizminə radioaktiv maddələrin təsirinin zəiflədilməsi üçün aşağıda göstərilən qaydalara ciddi əməl etmək lazımdır:

1. Açıq sahədə qalmağınızı məhdudlaşdırın. Evdən (otaqdan) çıxarkən fərdi mühafizə vasitələrindən (pambıqlı tənzif sarğı, respirator, rezin çəkmə, plaş, kombinezon və s.) istifadə edin.

2. Açıq ərazidə olduğunuz müddətdə soyunmayın və yerə oturmayın.

3. Küçənin tozlu sahələri ilə hərəkət etməyin, zərurət olmadıqda zəhərlənmiş əşyalara toxunmayın. Otaqdan kənarda siqaret çəkməyin və qida qəbul etməyin.

4. Otağa girməzdən əvvəl ayaqqabıları yaş əski ilə silin, üst paltarını çırpın. Paltarı və ayaqqabını qapının önündə çıxarın.

5. Uşaqların qalması üçün təyin olunmuş bütün otaqlarda gün ərzində vaxtaşırı olaraq yuyucu vasitələrlə sulu təmizləmə aparın.

6. Qidanı yalnız qapalı otaqlarda qəbul edin, yeməkdən əvvəl əllərinizi sabunla yaxşıca yuyun və ağzınızı 0,5%-li içməli soda ilə yaxalayın.

7. Suyu yalnız yoxlanmış mənbələrdən götürün, ticarət şəbəkələrində dozimetrik nəzarətdən keçirilmiş ərzaq məhsullarını alın. Zədələnmiş meyvə və giləmeyvələrdən istifadə etməyin. Qızartma yeməklərdən daha çox suda qaynadılmış yeməklərə üstünlük verin.

8. Fərdi təsərrüfatlardan əldə olunan ərzaqlar, xüsusən, süd, göyərti, meyvə və tərəvəzləri səhiyyə orqanlarının tövsiyəsi ilə istifadə edin.

9. Açıq su mənbələrinin radioaktiv zəhərlənmə dərəcəsi müəyyən edilənədək hovuzlarda və göllərdə çimmənin qarşısını alın.

10. Meşədən giləmeyvə, göbələk və gül yığmayın.

11. Yüksək radiasiya səviyyəsində yaxşı qidalarla – P, B vitaminləri, qlükoza əlavə edilmiş askorbin turşusu (gün ərzində 3 dəfə), aktivləşdirilmiş kömür (yeməkdən əvvəl 1-2 həb), yabanturpu, sarımsaq, eləcə də radiasiyaya əks təsirli ərzaqlarla (kök, bitki yağı, kəsmik) qidalanmaq lazımdır. Kofe, xaş, sümük iliyi, gilas, ərik, gavalı və qaynadılmış yumurtadan istifadə tövsiyə olunmur. Mal ətinin istifadəsini məhdudlaşdırın, ən yaxşısı donuz və quş ətindən istifadə edin. Quzuqulağı, ispanaq və salatdan istifadə etməyin.

12. Radioaktiv maddələrlə zəhərlənmə şəraitində ərzaqlardan istifadədən əvvəl aşağıdakıları etmək zəruridir:

- banka-konservləri açmazdan əvvəl yaxşıca yumaq, tərəvəzləri bolluca su ilə yumaq, kələmin üst yarpaqlarını çıxarmaq, kartofun, kökün, almanın və s. qabığını soymaq;
- əgər çörəyin, ətin və digər ərzaqların üstünə radioaktiv maddələr düşübsə, onda onların üst qatını kəsib götürmək;
- bilmək lazımdır ki, radioaktiv maddələr ərzaqların dərin qatlarına nüfuz edir: qənddə -2 sm-dək, çörək, ət və balıqda – bir neçə millimetrədək, tərəvəzlərdə yalnız üst qat. Əgər, maye halında olan ərzaqlar (süd, yağ) açıq qabda saxlanırsa, bu zaman radioaktiv maddələr bütün dərinlik boyu nüfuz edir.

13. Yeməkdə qapalı otaqlarda saxlanılan və radioaktiv zəhərlənməyə məruz qalmayan konservləşdirilmiş süddən və yeyinti məhsullarından istifadə edin. Zəhərlənmiş sahələrdə otarılan inəklərin südünü içməyin.

14. Radioaktiv maddələrin ətraf mühitə yayılması zamanı açıq sahədə bitmiş tərəvəzləri yığıb istifadə etməyin.

15. Radiasiya təhlükəsi rəsmi elan olunduqdan sonra açıq su mənbələrindən və içməli su xətlərindən su içməyin.

**Naxçıvan Muxtar Respublikasının**
**Fövqəladə Hallar Nazirliyi**

Əlavə № 18

**Kimyəvi zəhərlənmə zonasında davranış**

**QAYDALARI**

Kimyəvi zəhərli sahədə olduğunuz müddətdə aşağıda göstərilən qaydalara diqqətlə əməl etmək lazımdır:

1. Qaçmadan, toz qaldırmadan sürətlə hərəkət etmək.

2. Arxada olan və digər obyektlərə söykənməmək, ətrafdakı əşyalara toxunmamaq.

3. Fövqəladə Hallar Nazirliyinin nümayəndələrinin göstərişi olmadan fərdi mühafizə vasitəsini çıxarmamaq.

4. Yolda qarşılaşdığınız maye damcıları və ya naməlum maddələrin pudra səpintisi üzərinə ayaq basmamaq.

5. Zəhərləyici maddələrin durması mümkün olan yarğan, dərə, vadi, bataqlıq, tunel və digər dərinləşdirilmiş açıq yerlərdən keçməkdən çəkinmək.

6. Parklardan, bağlardan, bağçalardan, çəmənliklərdən və sahələrdən keçərkən ağacların budaqlarından, yarpaqlardan və otlardan hədsiz dərəcədə ehtiyatlı olmaq, çünki onların üzərinə zəhərləyici maddələr çökə bilər.

7. Dəri səthində, paltarın və fərdi mühafizə vasitəsinin üzərində zəhərləyici maddənin damcısı aşkar edildikdə təcili kimya əleyhinə fərdi zərfin (KƏFZ) içində olan mayedə isladılmış tampon və ya əski ilə, əgər KƏFZ yoxdursa, cib dəsmalı ilə həmin sahəni silib təmizləmək.

**Naxçıvan Muxtar Respublikasının**
**Fövqəladə Hallar Nazirliyi**

## Yod profilaktikasının keçirilməsi

## QAYDALARI

Stabil yod preparatları 4 il saxlandıqdan sonra təzələnmir və məhv olunmalıdır. Uşaqlarda qalxanvari vəzlərin radioaktiv yodla zədələnməsi böyüklərin aldığı dozadan 10 dəfə aşağı olduqda baş verir. Ona görə də bütün uşaq müəssisələri (məktəblər, uşaq bağçaları, körpələr evi və s.) stabil yod həbləri ilə təchiz olunmalıdır. Stabil yod həbləri ilk növbədə Təhsil Nazirliyinin və yerli icra hakimiyyətlərinin vəsaitləri hesabına alınmalıdır.

İşləyən əhali idarə, müəssisə və təşkilatların vəsaitləri hesabına alınan kalium yodid preparatları ilə təmin olunurlar. Bu preparatların alınması üçün idarə, müəssisə və təşkilatlar Səhiyyə Nazirliyinin əczaçılıq və özəl tibb müəssisələri sektoruna sifarişlər verməlidirlər. Kalium yodid preparatlarının alınmasına təsərrüfat obyektlərinin rəhbəri – mülki müdafiə rəisi, onun saxlanılmasına isə mülki müdafiə qərargah rəisləri cavabdehlik daşıyır.

İşləməyən əhali 5%-li yod cövhərini öz hesabına əczaxanalardan alır və yaşadıqları mənzillərdə saxlayırlar.

Stabil kalium yodid həbləri Aİ-2 fərdi dərman qutusunun yanında saxlanmalıdır. Onların saxlama müddəti 4 il təşkil edir.

**Naxçıvan Muxtar Respublikasının**
**Səhiyyə Nazirliyi**



## Radioaktiv zəhərlənmə zamanı daxili şüalanmadan qorunmaq üçün stabil yod (kalium yodid) preparatının istifadəsi üzrə

## TƏLİMAT

Ermənistan ərazisindəki Metsamor Atom Elektrik Stansiyasında qəza baş verdikdə mühafizə olunmayan əhali ümumi şüalanma dozasının əsas hissəsini gün ərzində radioaktiv maddələrlə zəhərlənmiş havanı udduqda alır. Bu zaman daxili şüalanmanın əsas mənbəyini qalxanvari vəzlərdə yığılan radioaktiv yod təşkil edir.

Stabil yod preparatları qalxanvari vəzdə radioizotopların yığılmasının qarşısını alır, onu radioaktiv zəhərlənmədən qoruyur və orqanizmdə təbii yod çatışmazlığını aradan qaldırır.

Ətraf mühitin radioaktiv maddələrlə zəhərlənməsi zamanı yod profilaktikasını mütləq keçirmək lazımdır. Yod profilaktikasını keçirmək üçün kalium yodid həblərindən aşağıda göstərilən dozalarda istifadə olunur:

a) **böyüklərə və 2 yaşdan yuxarı uşaqlara** – gün ərzində 1 həb (0,125 qr.), yeməkdən sonra, 7 gün ərzində;

b) **2 yaşadək uşaqlara** - gün ərzində 1/4 həb (0,04 qr.), yeməkdən sonra, 7 gün ərzində;

c) **hamilə qadınlara** - gün ərzində 1 həb (0,125 qr.) 0,75 qr. kalium perxloratla eyni vaxtda qəbul edilir (3 həb – biri 0,25 qr).

Kalium yodid həbləri olmadıqda 5%-li yod cövhərindən aşağıda göstərilən dozalarda istifadə olunur:

a) **böyüklərə və 14 yaşdan yuxarı yeniyetmələrə** – gün ərzində 1/2 stəkan südə və ya suya 44 damcı salmaqla yeməkdən sonra, 1 dəfə 7 gün ərzində;

b) **5 yaşdan 14 yaşadək uşaqlara** – gün ərzində 1/2 stəkan südə və ya suya 22 damcı salmaqla yeməkdən sonra, 1 dəfə 7 gün ərzində;

c) **5 yaşadək uşaqlara** – yod cövhəri təyin edilmir.

Yod cövhərini band formasında çiyinin ön hissəsinə və baldırlara tamponla sürtməklə istifadə etmək olar. Bu üsulun

qoruyucu təsirini həmin dozalarda həblərin daxilə qəbulu ilə müqayisə edək:

a) **2 yaşadək uşaqlara** - gün ərzində 10-11 damcı;

b) **2 yaşdan 5 yaşadək uşaqlara** - gün ərzində 20-22 damcı.

Yod profilaktikası **«HAMININ DİQQƏTİNƏ»** siqnalı ilə radioaktiv zəhərlənmə təhlükəsi barədə əhaliyə məlumatlar verildikdən sonra həyata keçirilir.

Elektrik sirenləri vasitəsilə siqnalı eşidilən kimi televizoru və radio qəbulediciləri açın, verilən səsli məlumatlara diqqətlə qulaq asın. Bu məlumatlarla Siz özünüzü və uşaqlarınızı mühafizə etmək üçün nə edəcəyinizi öyrənəcəksiniz.

**YADDA SAXLAYIN !!!**

Yod profilaktikası zamanı stabil yod preparatlarının (kalium yodid həbləri, 5 %-li yod cövhəri) qəbulu nəticəsində onun qoruyucu təsiri aşağıdakı müddətlərdə özünü göstərir:

a) radioaktiv çirklənməyədək 6 saat müddətində -100%;

b) radioaktiv çirklənmədən sonra 1 saat müddətində -90%;

c) radioaktiv çirklənmədən sonra 6 saat müddətində -2%.

**Naxçıvan Muxtar Respublikasının**
**Səhiyyə Nazirliyi**